

## Anama deyin ki...

Mən bircə arzuya çatmaqdan ötrü,
Neçə arzusunu boğubdur anam.
Mənə bircə qardaş tapmaqdan ötrü,
Mənə altı bacı doğubdur anam.

Əlindən gəncliyi salıb itirdi,
Tapşırdı gəncliyin əlinə məni.
O da toy elədi, gəlin gətirdi,
Vermək istəmədi gəlinə məni.

Gör neçə aydı ki, neçə ildi ki,
Anam lap nəzərdən salıb oğlunu.
Mənim gözəl anam elə bildi ki,
Yad qızı əlindən alıb oğlunu.

Anama deyin ki, bir nəvən olub,
Quş olsun göylərə ucalsın anam.
Kim onun əlindən oğlunu alıb,
Oğlunu əlindən qoy alsın anam.

## Nişan üzüyü

Qoy bütün qızların başına gəlsin,
Qız üçün töhfədir nişan üzüyü.
Nişana gələnlər oynasın, gülsün,-
Sevincdir, nəşədir nişan üzüyü.

Həyat yollarında ucalanda da,
Ailə qayğısından güc alanda da,
Şirin xatirədir qocalanda da,-
Ömürdə şölədir nişan üzüyü.

Bu elə adətdir yaşar daima,
Bu elə ümmandır coşar daima,
Arzunu arzuya qoşar daima,-
Nübardır, bəhrədir nişan üzüyü.

Bir zərrin günəşdir ziyası sönməz,
Bir şirin ülfətdir ilqarı dönməz,
Sevinc zirvəsidir: ucalar - enməz,
Səmada zöhrədir nişan üzüyü.

Yanar gözəllərin barmaqlarında,
Ötər aşıqların dodaqlarında,
Ömür kitabının varaqlarında
İlkin səhifədir nişan üzüyü.

# Bayramınız mübarək, əziz qadınlar!

8 Mart - Beynəlxalq Qadınlar Günündə arzu və istəyimizi rəsmiyyətçilikdən uzaq və daha səmimi qəbul edəsiniz deyə ürək sözümüzü şair Rüstəm Bağırın fikirlərinə calamağı üstün tutduq.